UOT 94

MƏMMƏDAĞA BAXIŞOV
Bakı Dövlət Unuversiteti, Tarix fakültəsi
Avropa və Amerika ölkələrinin yeni və
müasir tarixi kafedrasının dosenti
mammadaqabaxıshov@bsu.edu.az

AVROPA İTTİFAQI İLƏ İNGILTƏRƏ ARASINDA MÜNASİBƏTLƏRİN İNKIŞAFI, XÜSUSİYYƏTLƏRİ VƏ BREKZİT

DOI: https://doi.org/10.36719/2708-065X/111/134-139

Məqalə İngiltərənin Avropa İttifaqı ilə münasibətlərinə həsr olunmuşdur. Məqalədə İngiltərənin Avropa inteqrasiyasına münasibəti, 1960-1990-cı illərdə Avropa İttifaqı ilə münasibətləri, 1975-ci il referendumunun Avropa İttifaqının İngiltərə ilə münasibətlərinin inkişafına təsiri kimi məsələlər şərh edilir. Müəllif XXI əsrin əvvəllərində İngiltərə ilə Avropa İttifaqı arasında ziddiyyətlərin artmasına, İngiltərənin Avropa İttifaqından çıxmağa yönəlmiş fəaliyyətinə və 2016-cı il referendumunun yekunlarına xüsusi diqqət yetirir.

Açar sözlər: inteqrasiya, Avropa İttifaqı, əməkdaşlıq, ziddiyyət, referendum Brekzit.

Giriş. İkinci dünya müharibəsindən sonra İngiltərənin xarici siyasətində Qərbi Avropa ölkələri ilə əməkdaşlıq əsas istiqamətlərdən biri idi. İngiltərənin Qərbi Avropaya diqqətinin artması həm də orada iqtisadi inteqrasiyanın başlanması ilə bağlı idi. İngiltərə iqtisadi inteqrasiya prosesinə qoşulmaq istəmir, digər tərəfdən, ona nəzarət etmək istəyirdi. Belə mövqeyinə görə İngiltərə yalnız 1973-cü ildə Avropa İqtisadi Birliyinə daxil olmuşdu.

İngiltərəni Avropa İttifaqında "çətin tərəfdaş" adlandırırdılar. Onların münasibətlərində ilk səhifə 1955-ci ildə keçirilmiş Messina konfransı ilə başlanmışdı. Messina konfransında Qərbi Avropanın altı ölkəsi və İngiltərə Avropa İqtisadi Birliyinin yaradılması haqqında danışıqlar aparmışdı. Konfransı yarımçıq tərk edən İngiltərənin nümayəndəsi R.Breterton istehsa ilə demişdi:"Müzakirə etdiyimiz müqaviləni razılaşdırmaq, təsdiq etmək və yerinə yetirmək şansı yoxdur" (2, s.99).

Əsas hissə. İngiltərənin Avropa İttifaqında üzvlüyünün nəticəsi 2016-cı ilin iyununda keçirilən referendum oldu. Referendumda İngiltərənin Avropa İttifaqından çıxmasına, yəni Brekzitə iştirak edənlərin 51,9%-i səs Verdi (5, s.250). Referendumun nəticəsi Avropa İttifaqı üçün gözlənilməz oldu və təşkilat daxili böhranın göstəricisi idi. İngiltərənin çıxması Avropa İttifaqının daxilində böyük və kiçik ölkələr arasında, siyasi inteqrasiyanın tərəfdarları və əleyhdarları arasında, azad ticarət və himayədarlıq tərəfdarları arasında qüvvə nisbətinin dəyişməsinə və Avropa İttifaqının üzvü olan ölkələrdə inteqrasiyaya şübhə ilə yanaşanların sayının artmasına səbəb oldu.

Referendumun nəticəsi təsadüfü deyildi. İngiltərə Avropa İttifaqının ənənəvi olaraq inteqrasiyaya hamıdan çox şübhə ilə yanaşan ölkəsi idi. Avropa İttifaqına münasibət həmişə İngiltərədə hakim elitanın mövqeyinə və ictimai rəyə böyük təsir göstərmişdi. 1960-cı illərdə iqtisadi inkişafın zəifləməsi və xarici ticarət kəsirinin artması ilə bağlı İngiltərənin Avropa İqtisadi Birliyinə qoşulması zəruri oldu. Digər tərəfdən, həm leyboristlər, həm də mühafizəkarlar arasında inteqrasiyaya şübhə edənlərin, inanmayanların sayı çox idi. İngiltərənin Avropa inteqrasiyasına qoşulmasına etiraz edən leyboristlər AİB-ə burjuaziyanın fəhlələrə qarşı yaratdığı təşkilat və NATO-nun iqtisadi dayağı kimi baxırdılar. Avropa inteqrasiyasına şübhə ilə yanaşan mühafizəkarlar hesab edirlər ki, AIB ölkənin milli suverenliyi üçün təhlükə yaradır. Ona görə baş nazir H.Vilsonun AİB-lə danışıqlara başlamaq üçün parlamentin razılığını alması asan məsələ deyildi.

1972-ci ildə mühafizəkar E.Hit hökuməti İngiltərənin Avropa İqtisadi Birliyinə daxil olması haqqında müqavilə imzaladı (4, s.241). Bu müqavilə İngiltərə parlamentində böyük çətinliklə təsdiq edilmişdi. Parlamentdə müxalifətçi leyboristlər H.Vilson başda olmaqla müqavilənin şərtlərini sərt tənqid edirdilər, 1975-ci ildə keçirilmiş referendumda hər iki partiyanın rəhbərləri İngiltərənin AİB-də qalmasına tərəfdar çıxmışdı. Eyni zamanda "Avropa məsələsi" leyborist partiyası sıralarında ixti-

lafların səbəblərindən biri idi. 1975-ci ilin aprelində Leyborist Partiyasının konfransında iştirak edənlərin 60%-i AİB-in əleyhinə səs vermişdi(7, s.339). H.Vilson hökümətinin 23 üzvündən 7-si İngiltərənin AİB-dən çıxmasına tərəfdar idi.

M.Tetçerin hökumətə başçılıq etdiyi dövr İngiltərənin AİB-lə münasibətlərinin inkişafında mürəkkəb mərhələlərdən biri idi. Avropa inteqrasiyasına şübhə ilə yanaşan və sərt mövqedə dayanan M.Tetçer digər tərəfdən, tərəflər arasında iqtisadi əlaqələri möhkəmləndirməyin zəruriliyini dərk və vahid daxili bazar ideyasını müdafiə edirdi. 1990-cı ildən İngiltərə hökümətinə başçılıq edən C.Meycon Avropa İttifaqına qarşı sərt ifadələrdən imtina etdi, eyni zamanda mühafizəkarların ənənəvi siyasətini davam etdirib Avropa inteqrasiyasına şübhə ilə yanaşırdı. 1992-ci ildə İngiltərə Maastrixt müqaviləsini imzaladı. Lakin Avropa İttifaqı onun vahid valyutaya qoşulmamaq hüququnu tanıdı və İngiltərəyə ümumi xarici və müdafiə siyasəti sahəsində xüsusi status verildi. T.Bleyrin dövründə İngiltərənin Avropa İttifaqı ilə münasibətləri yaxşılaşdı. 1998-ci ildə T.Bleyrin Sen-Maloda Fransa prezidenti ilə görüşü zamanı İngiltərə Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətini dəstəklədi.

İngiltərə Avropa İttifaqının rəhbərliyi ilə avrozonaya qoşulmaq haqqında danışıqlar aparırdı. Lakin T.Bleyr "Britaniya Avropanın ürəyində" şüarını həyata keçirə bilmədi. Ölkədə hakim elita yenə də Avropa İttifaqına münasibətdə iki düşərgəyə ayrılmışdı. 2009-cu ildə icma palatasında 331 deputatdan 248-i Lissabon müqaviləsi ilə bağlı referendum keçirilməsini tələb etmişdi (10, s.164). Mühafizəkarlar İngiltərənin Avropa İttifaqında qalmasına tərəfdar idi, lakin onun səlahiyyətlərinin azaldılmasını tələb edirdilər. Lakin tədricən Mühafizəkarlar Partiyasının Avropa İttifaqına münasibəti sərtləşirdi.

T.Bleyrin dövründə leyboristlərin Avropa İttifaqına loyal münasibəti qalmışdı. Leyboristlər inteqrasiyanın dərinləşməsini istəmir və mövcud səviyyədə qalmasına tərəfdar idi. Leyboristlərin rəhbəri C.Korbin Avropa İttifaqında üstün yer tutan yeni liberal ideologiyanı bəyənmirdi. Liberal Demokrat Partiyası Avropa İttifaqını müdafiə edir və ona yeni səlahiyyətlər verilməsinə tərəfdar idi. Lakin 2010-cu ildə mühafizəkarlarla birlikdə koalisiyalı hökümət yaradan LDP Avropa İttifaqına münasibətini dəyişməyə məcbur oldu. Britaniya Müstəqillik Partiyası ölkənin Avropa İttifaqından çıxmasını hamıdan çox istəyirdi. Əvvəl Mühafizəkarlar Partiyasını müdafiə edən seçicilərin bir qismi Müstəqillik Partiyasının tərəfinə keçmişdi.

İngiltərənin siyasi həyatında aparılan mübahisələr zamanı Avropa İttifaqı daha çox iki məsələ ilə bağlı tənqid edilirdi: 1.Avropa İttifaqı İngiltərənin suverenliyini pozur, onu "öz qanunlarını qəbul etməyə" imkan vermir; 2.Avropa İttifaqına üzvlük Şərqi Avropadan gələn mühacirlərin qarşısını almağa imkan vermir, mühacirlər həm iş yeri, həm də sosial yardım istəyir (1, s.302).

Avropa İttifaqı çərçivəsində problemlərin artması, xüsusilə avrozonanı böhranı və mühacir böhranı İngiltərədə Avropa İttifaqından narazılığı artırırdı. 2014-cü ildə İngiltərədə Avropa parlamentinə keçirilən seçkidə Müstəqillik Partiyası 26,8% səs qazanıb birinci yeri tutmuşdu. Baş nazir D.Kemeron bu amili nəzərə alıb İngiltərə ilə Avropa İttifaqı arasında səlahiyyətlərə yenidən baxılması və Avropa İttifaqında üzvlüklə bağlı referendum keçirilməsi haqqında qərar etmişdi. Bu qərar D.Kemeronun Mühafizəkarlar Partiyasında Avropa İttifaqının əleyhinə olanlara güzəşti və Müstəqillik Partiyasının seçicilərini öz tərəfinə çəkmək cəhdi idi.

2016-cı ildə Brekzitlə bağlı keçirilən referendum göstərdi ki, İngiltərə ilə Avropa İttifaqı arasında ixtilaflar daha da kəskinləşib. Ölkə əhalisi Avropa İttifaqına münasibətdə iki hissəyə ayrılmışdı. Referendumda ölkənin səs vermə hüququ olan əhalisinin 72%-i iştirak etmiş, 51,9%-i Brekzitin lehinə səs vermişdi. Fərq partiyalararası və partiyadaxili, regionlar və nəsillərarası idi. Mühafizəkarlar Partiyasında və hökümət daxilində qarşıdurma yaranmışdı. Hökümət üzvlərinin bir qismi Brekzitə səs vermişdi.Şotlandiya və Şimali İrlandiyada əhalinin əksəriyyəti İngiltərənin Avropa İttifaqında qalmasına səs vermişdi. London şəhərində gənclərin əksəriyyəti ölkənin Aİ-də qalmasına, yaşlı əhali isə çıxmasına səs vermişdi.

İngiltərə Avropa inteqrasiyasının dərinləşməsinə mane olurdu. İngiltərə vahid daxili bazarın yaradılmasını Avropa İttifaqının rəhbər orqanlarının islahatı ilə əlaqələndirməyin əleyhinə idi. 1985-ci ildə Avropa Şurasının iclasında Aİ-nin rəhbər orqanlarının islahatını müzakirə etmək üçün hökümətlərarası konfransın çağrılması məsələsi səs verməyə çıxarıldı: 7 ölkə qərarın lehinə, İngiltərə, Da-

nimarka və Yunanıstan əleyhinə səs Verdi (12, s.287). Vahid Avropa Aktı ilə bağlı danışıqlar zamanı Avropa İttifaqının üzvü olan ölkələr İngiltərəni Aİ-nin daxili sərhədlərində nəzarəti ləğv etməyin zəruriliyinə inandıra bilmədi. Ona görə 1985-ci ildə daxili sərhədlərə nəzarətin ləğvi haqqında Şengen sazişini Qərbi Avropanın beş ölkəsi imzaladı. Yalnız 1997-ci ildə imzalanmış Amsterdam sazişi ilə Şengen zonası Avropa inteqrasiyasının tərkib hissəsi oldu. İngiltərə axıradək Şengen zonasına qoşulmadı.

Maastrixt müqaviləsinin hazırlanması zamanı İngiltərə və Danimarka siyasi ittifaq yaratmaq üçün hökümətlərarası konfrans keçirilməsinin əleyhinə çıxış etdilər. Maastrixt müqaviləsində öz əksini tapmış "inteqrasiyanın üç əsas dayağı" məsələsində ikinci və üçüncü dayaqlar üzrə Avropa İttifaqı Komissiyasının və Avropa Parlamentinin səlahiyyətləri məhz İngiltərənin tələbi ilə artırılmadı. İngiltərə Avropa İttifaqında rəhbər vəzifələrə ayrı-ayrı şəxslərin təyin edilməsi məsələsində fərqli mövqe tuturdu. 1994-cü ildə Avropa İttifaqına daxil olan ölkələrin hamısı Fransa və AFR-in təklifi ilə Aİ komissiyasının sədri vəzifəsinə Belçikanın keçmiş baş naziri Jan-Lyuk Dexanın namizədliyinə razı idi (1, s.303). İngiltərə həmin namizədi bəyənmədi və Aİ-nin komissiyasının sədri vəzifəsinə J.Santer təyin edildi. İngiltərə 1990-cı ilin əvvəlindən 2016-cı ilədək Avropa İttifaqının vergi və sosial siyasətinə açıq şübhə ilə yanaşmışdı. 2008-2012-ci illərdə Avropa İttifaqının iqtisadi böhrandan çıxmaq üçün hazırladığı təkliflərə İngiltərə dəfələrlə "yox" demişdi.

Avropa İttifaqına üzv olduğu müddətdə İngiltərə müntəzəm şəkildə özü üçün istisnalar və imtiyazlar tələb etmişdi. İnteqrasiyanın dərinləşməsinə dair böyük layihələr təsis müqavilələrinə dəyişiklik edilməklə həyata keçirilirdi. İngiltərə həmin islahatlara mane olmayacağını bəyan edir, əvəzində ona sərfəli olmayan layihələrdə iştirak etməmək hüququ alırdı. Ona görə bəzən deyirdilər ki, İngiltərə Avropa İttifaqının yarımçıq üzvüdür. İngiltərə həm də avroya qoşulmamışdı.

İngiltərə həmişə Avropa İttifaqı çərçivəsində valyuta sahəsində əməkdaşlığa şübhə ilə yanaşmışdı. İngiltərə 1979-cu ildə yaradılmış Avropa Valyuta Sisteminə qoşulmadı. Maastrixt müqaviləsinin hazırlanması zamanı İngiltərə bildirdi ki, vahid valyutanı tətbiq etməyəcək (13, s.267). Baş nazir T.Bleyr ölkəsinin avroya keçməsinə meyilli idi, Avropa konstitusiyasının qüvvəyə minməməsi onun qarşısını aldı. 2008-ci ildə başlanmış iqtisadi-maliyyə böhranı göstərdi ki, İngiltərə öz valyutası əsasında daha çevik və səmərəli islahatlar həyata keçirmək imkanına malikdir.

İngiltərə Avropa İttifaqında qəbul edilən bir sıra qərarlara qoşulmasa da aparılan danışıqlarda iştirak edir və Aİ-də qərarların qəbul edilməsinə təsir göstərirdi. Maastrixt müqaviləsinin hazırlanması zamanı İngiltərə sosial sahədə Avropa İttifaqının səlahiyyətlərinin əleyhinə çıxdı. İngiltərə Avropa İttifaqının Sosial Xartiyasına 1997-ci ildə qoşuldu (6, s.769). İngiltərənin Avropa İttifaqı ilə münasibətlərində "büdcə məsələsi" ən mübahisəli idi. İngiltərə XX əsrin 70-ci illərində Avropa İttifaqının büdcəsinə tələb edilən qədər vəsait köçürmüş, lakin kənd təsərrüfatı üçün Avropa İttifaqından cüzi məbləğdə kredit almışdı. Çünki, İngiltərənin iqtisadiyyatında kənd təsərrüfatının payı zəif idi (11, s.216).

1974-cü ildə baş nazir H.Vilson İngiltərənin Avropa İqtisadi Birliyində üzvlüyünün maliyyə şərtlərinə yenidən baxılmasını təklif etdi. Bu təklif əsasında Avropa İqtisadi Birliyində büdcə vəsaitinin yenidən bölünməsi ilə məşğul olan Regional fond yaradıldı. 1980-ci ildə Avropa İqtisadi Birliyi ilə İngiltərə arasında imzalanmış müvəqqəti sazişə görə 1981-1984-cü illərdə İngiltərənin ödədiyi vəsaitin bir hissəsini ona qaytarılmalı idi (14, s.451). 1984-cü ildə imzalanmış yeni sazişə görə Avropa İqtisadi Birliyi İngiltərəyə 1 milyard avro qaytarmalı idi. XXI əsrin əvvəllərində Avropa İttifaqı İngiltərədən alınan üzvlük haqqının məbləğini 5 milyard avro azaltdı.

İngiltərə ilə Avropa İttifaqı arasında xüsusi şərtlər haqqında danışıqların nəticəsi Brekzit oldu. Referendumun təşəbbüskarı olan D.Kemeron əslində Avropa İttifaqından çıxmağa tərəfdar deyildi. Avropa İttifaqına münasibətdə sərt mövqe tutmaqla D.Kemeron 2015-ci il seçkilərində Mühafizəkarlar Partiyasının qələbəsini təmin etdi. D.Kemeron referendumdan bir təzyiq vasitəsi kimi istifadə edib Avropa İttifaqında daha ciddi güzəştlər qazanmaq fikrində idi. 2016-cı ilin fevralında Avropa İttifaqının iclasında İngiltərəyə iqtisadi idarəetmə, sərbəst yerdəyişmə və milli suverenlik sahəsində xüsusi imtiyazların verilməsi haqqında saziş imzalandı. Brekzitdən sonra həmin imtiyazlara ehtiyac qalmadı.

İngiltərə Avropa İttifaqının fəaliyyətinin bir sıra istiqamətlərində yaxından iştirak etmişdi. T.Bleyrin dövründə İngiltərənin Avropa İttifaqında fəallığı artmışdı. İngiltərə Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsində, daxili işlər orqanlarının əməkdaşlığında daha fəal idi. 1998-ci ildə Fransa prezidenti J.Şirakın İngiltərənin baş naziri T.Bleyrlə imzaladığı birgə bəyannamədən sonra Avropa İttifaqının ümumi təhlükəsizlik və müdafiə siyasəti formalaşmağa başladı.

Avropa İttifaqına üzv olduğu müddətdə İngiltərənin daha çox vahid daxili bazar maraqlandırmışdı. M.Tetçer Avropa İttifaqı çərçivəsində vahid daxili bazarın formalaşması üçün faydalı işlər görmüşdü. İngiltərə Avropa İttifaqının vahid daxili bazarın yaradılmasına yönəlmiş qərarlarını daha tez icra edirdi. 1990-cı illərdə İngiltərə bu cəhətdən birinci üçlüyə daxil idi, XXI əsrin əvvəlində isə bəzən AFR və Fransadan irəli keçirdi. 2015-ci ildə İngiltərənin ixracının 49%-i Avropa İttifaqı ölkələrinin payına düşürdü. İngiltərə üçün xidmət və kapitalların sərbəst hərəkəti mühüm əhəmiyyətə malik idi. Transmilli banklar və şirkətlər ümumi bazarda iştirak etmək üçün İngiltərədən bir vasitə kimi istifadə edirdilər. Vahid daxili bazarın əsas elementlərindən biri işçi qüvvəsinin sərbəst hərəkəti idi. Bu zəmində Şərqi Avropadan İngiltərəyə işləməyə çoxlu insan gəlirdi. İngiltərə ilə Avropa İttifaqı arasında ziddiyyətin əsas səbəblərindən biri işçi qüvvəsinin sərbəst yerdəyişməsi idi.

İngiltərənin Avropa İttifaqına münasibəti ənənəvi olaraq üç tezisə əsaslanırdı: İngiltərə iqtisadi inteqrasiyaya və azad ticarətə tərəfdar olsa da, siyasi inteqrasiyaya hazır deyildi. Hökümətlərarası əməkdaşlığa üstünlük verən İngiltərə Avropa İttifaqının səlahiyyətinə aid olan məsələlərin minimuma enməsi üçün əlindən gələni əsirgəmirdi. İngiltərə Avropa İttifaqı tərəfindən iqtisadi və sosial sahədə ümumi standartlar hazırlanıb həyata keçirilməsini istəmirdi (9, s.358).

XX əsrin 50-ci illərində AİB-ə qoşulmayan İngiltərə Avropa Azad Ticarət Birliyinin təşəbbüskarı oldu. Avropa Azad Ticarət Birliyi hökümətlərarası əməkdaşlıq əsasında qurulmuşdu, məqsəd azad ticarət zonası yaratmaq idi. İngiltərə Avropa İqtisadi Birliyinə daxil oldu, lakin inteqrasiyaya münasibətini dəyişmədi. 1977-ci ildə baş nazir C.Kallegen həddindən artıq mərkəzləşmiş birlik təhlükəsindən bəhs etmişdi. 1988-ci ildə M.Tetçer bəyan etmişdi ki, İngiltərədə hökümətin iqtisadiyyata müdaxiləsi zəifləyib, indi həmin funksiyanı daha geniş həcmdə Avropa İqtisadi Birliyi həyata keçirir. Q.Braunun dövründə də Avropa İttifaqına münasibət dəyişmədi. İngiltərə yenə Avropa İttifaqına "Avropanın ticarət bloku" kimi baxırdı. D.Kemeron deyirdi ki, Avropa İttifaqı siyasi ittifaqa çevrilməməli, orduya, hərbi-hava qüvvələrinə malik olmamalıdır. İngiltərə inteqrasiyanın dərinləşməsinin və siyasi ittifaqa doğru irəliləməsinin əleyhinə idi. İngiltərə yalnız Avropada yerini düşünürdü. 1970-1971-ci illərdə İngiltərənin AİB ilə danışıqlar aparan nümayəndəsi K.O"Nill bəyan etmişdi ki, Avropa İqtisadi Birliyinə daxil olmaq və Avropa siyasətinin mərkəzində mövqeyimizi bərpa etmək lazımdır. Danışıqlar yalnız həmin məqsədə çatmağın vasitələri haqqında aparılırdı.

Avropa İttifaqı ilə iqtisadi əməkdaşlıq edən İngiltərə özünü vahid Avropa ailəsinin üzvü hesab etmirdi. Mühacir məsələsində İngiltərə hökuməti Şərqi Avropadan gələnlərlə Asiya və Afrika ölkələrindən gələnlər arasında ciddi fərq görmürdü. İngiltərə ənənəvi olaraq özünü Avropa İttifaqının müdaxiləsindən qoruyurdu. 2011-ci ildə İngiltərə parlamentinin qəbul etdiyi qanuna görə Avropa İttifaqına yeni səlahiyyətlər yalnız referendumdan sonra verilə bilərdi. İngiltərə Avropanın problemlərinə öz məsələsi kimi baxmırdı (8, s.293). 2011-ci ildə D.Kemeron bildirdi ki, daha Yunanıstana Avropa İttifaqı vasitəsilə yardım etməyəcək. Çünki, Yunanıstan avrozonanın üzvüdür, İngiltərə isə avrozonaya daxil deyil. 2007-ci ildə Q.Braun Lissabon müqaviləsini hamı ilə eyni vaxtda deyil, bir neçə saat sonra imzalamışdı (15, s.94).

Brekzit haqqında referendumdan sonra baş nazir D.Kemeron istefaya çıxdı. T.Mey İngiltərənin yeni baş naziri oldu (6, s.183). 2017-ci ilin martın 29-da T.Mey Avropa Şurasının sədri D.Tuskun adına məktub göndərib İngiltərənin Avropa İttifaqından çıxması prosesinin başlandığını bildirdi. Bu proses 2020-cu ilin fevralınadək davam etdi. Avropa İttifaqı hesab edirdi ki, əvvəlcə İngiltərənin Avropa İttifaqından çıxmasının şərtləri haqqında saziş imzalanmalıdır. Bu da Şimali İrlandiyanın statusunu, İngiltərədə yaşayan Avropa İttifaqı vətəndaşlarının və Avropa İttifaqı ölkələrində yaşayan İngiltərə vətəndaşlarının hüquqlarını və İngiltərənin 2014-2020-ci illər üçün Avropa İttifaqı büdcəsinin həyata keçirilməsində iştirakını tənzimləməli idi (1, s.309).

Avropa İttifaqı İngiltərənin təşkilatdan tam ayrılmasından sonra onunla iqtisadi və siyasi əməkdaşlığın əsasları ilə bağlı saziş haqqında danışıqlar aparmaq fikrində idi. Avropa İttifaqı bildirdi ki, İngiltərə daha vahid bazarın imkanlarından istifadə edə bilməz, İngiltərədən Avropa İttifaqı ölkələrinə ixrac edilən məhsullar təşkilatın standartlarına uyğun olmalıdır. İngiltərə Avropa İttifaqı ilə eyni vaxtda həm təşkilatdan ayrılmaq və onunla sazişin şərtləri haqqında razılığa gəlmək fikrində idi. Avropa İttifaqı İngiltərə ilə Brekzit haqqında saziş imzalamasa İngiltərə Avropa İttifaqından sonrakı əməkdaşlığın şərtləri haqqında saziş bağlamadan çıxmalı idi.

Nəticə. Avropa İttifaqı Brekzit haqqında saziş imzalamaq üçün İngiltərənin qarşısına ağır şərtlər qoymuşdu. İngiltərənin Avropa İttifaqından iqtisadi asılılığı daha böyük idi. Avropa İttifaqı İngiltərəyə güzəşt etmək fikrində deyildi. İngiltərədə hökümətlə parlament arasında Brekzit məsələsi ilə bağlı vahid mövqe mövcud deyildi.

2019-cu ilin yanvarında icma palatası T.Mey hökümətinin hazırladığı Avropa İttifaqı ilə sazişi layihəsini təsdiq etmədi. İngiltərə ilə Avropa İttifaqı arasında sazişin vaxtı dəfələrlə təxirə salındı. Avropa İttifaqı İngiltərənin gələcək əməkdaşlığın şərtləri haqqında saziş imzalamadan təşkilatdan ayrılmasını istəmirdi. 2019-cu ilin payızında İngiltərə hökümməti Avropa İttifaqı ilə Brekzitin şərtlərini razılaşdırdı. Lakin yenə icma palatası layihəni təsdiq etmədi. 2020-ci ilin yanvarın 31-də İngiltərə parlamenti Brekzit haqqında sazişi bəyəndi. 2020-ci il keçid dövrü kimi müəyyən edildi. Bu müddət ərzində İngiltərə ilə Avropa İttifaqı arasında münasibətlərin gələcək formatı haqqında saziş imzalanmalı idi.

İngiltərə düşünürdü ki, münasibətlər bərabərhüquqlu olmalı və tərəflər çoxlu sayda sahə sazişləri imzalamalıdır. İngiltərə ölkə qanunlarının Avropa hüququna uyğunlaşdırılmasının əleyhinə idi. Avropa İttifaqı bütün məsələləri əhatə edən kompleks bir saziş imzalamağı təklif edirdi. Avropa İttifaqı İngiltərədən tələb edirdi ki, əksər sahələrdə Avropa standartlarına əməl etməyi öhdəsinə götürsün. Danışıqlar ləng aparılırdı.Avropa İttifaqı ilə İngiltərə arasında ticarət və əməkdaşlıq haqqında saziş 2020-ci ilin dekabrın 24-də imzalandı. Bütün sahələr üzrə əməkdaşlıq məsələlərini tənzimləyən bu kompleks sazişdə deyilirdi ki, məhsullarla ticarət azad, gömrüksüz və normasız olacaq. İngiltərənin xidmətləri daha Avropa İttifaqının bazarına gəlməməli idi. Tərəflər arasında mübahisələri tənzimləmək üçün müstəqil arbitraj yaradılmalı idi. Saziş tərəflərin bir-birinə ciddi güzəştləri əsasında imzalanmışdı. Eyni zamanda həm İngiltərə, həm də Avropa İttifaqı imzalanmış sazişə öz qələbəsi kimi baxırdı. Bu amil göstərdi ki, tərəflər əməkdaşlıqda maraqlıdır. Razılığa gəlindi ki, mübahisəli məsələləri tənzimləmək üçün danışıqları davam etdirsinlər.

ƏDƏBİYYAT

1. Кавещников Н.Ю. Европейский Союз: история, институты, деятельность. М., Аспект Пресс, 2023, 368с.
2. Грант Ч. Делор. Добро пожаловать в дом, который построил. Жак.М. Московская школа политических исследований, 2002, 466 с.
3. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, Az.TU-nun mətbəəsi, 2012, 408s.
4. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. II hissə (1945-1990). Bakı, Füyüzat, 2024, 236 s.
5. Baxışov M.Ə., Hüseyn M.A. Müasir dünya tarixi. Bakı, BDU nəşr evi, 2025, 400 s.
6. Baxışov M.Ə. İngiltərənin yeni və müasir tarixi. Bakı, 3 saylı Bakı Mətbəəsi ASC, 2018, 190 s.
7. Бабынина Л.О. Гибкая интеграция в Европейском Союзе: Теория и практика применения. М., ИРСС, 2012, 304 с.
8. Громыко Ал.А. Европа XXI века. Новые вызовы и риски. М., Институт Европы РАН, 2017, 584 с.
9. Громыко Ал.А. Дилеммы Британии: поиск путей развития. М., Весь Мир, 2014, 436 с.
10. Арбатова Н.К. Европейский Союз на перепутье: нерешенные проблемы и новые вызовы. М., ИМЕМО РАН, 2016, 234 с.
11. Барановский В.Г. Европейское сообщество в системе международных отношений. М., Наука, 1986, 319 с.

12. Буторина О.В. Европейская интеграция. М., Деловая литература, 2017, 720 с.
13. Буторина О.В. Экономическая история евро. М., Весь Мир, 2020, 576 с.
14. Капитонова Н.К. История внещней политики Великобритании. М., Международные отношения, 2016, 840 с.
15. Квашнин Ю.Д. Выборы в Европарламент-2019. Национальные ответы на вызовы европейской интеграции. М., ИМЕМО РАН, 2019, 178 с.

МАМЕДАГА БАХЫШОВ
доцент Бакинского государственого университета

РАЗВИТИЕ И ОСОБЕННОСТИ ОТНОШЕНИЙ МЕЖДУ ЕВРОПЕЙСКИМ СОЮЗОМ И АНГЛИЕЙ И БРЕКЗИТ

Статья посвящена отношениям Англии с Европейским Союзом. В статье излагается отношение Англии к европейской интеграции. Комментируются такие вопросы, как отношения Англии с Европейским союзом в 1960–1990-х годах и влияние референдума 1975 года на развитие отношений Европейского Союза с Англией. Особое внимание автор уделяет растущей напряженности между Англией и Европейским союзом в начале XXI века, попыткам Англии выйти из Европейского союза и результатам референдума 2016 года.

Ключевые слова: интеграция, Европейский Союз, сотрудничество, противоречие, референдум, Брекзит

MAMEDAGA BAKHISHOV
PhD, associate professor of Baku State Universitety

DEVELOPMENT AND FEATURES OF RELATIONS BETWEEN THE EUROPEAN UNION AND ENGLAND AND BREXIT

The article is devoted to England's relations with the European Union. The article discusses the UK's attitude towards European integration. It comments on such issues as the UK's relations with the European Union in the 1960s–1990s and the impact of the 1975 referendum on the development of the EU's relations with the UK with Great Britain. The author pays special attention to the growing tensions between England and the European Union at the beginning of the 21st century, the UK's attempts to leave the European Union and the results of the 2016 referendum.

Keywords: integration, European Union, cooperation, contradiction, referendum, Brexit.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Elmira Hüseynova, t.e.d. Sevinc Yusifzadə.